

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 41 (21.451)

2 mart 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Avropa Şurası Parlament Assambleyasının prezidenti Pedro Aqramuntu qəbul edib.

Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əlaqələrin qarşılıqlı inam və hörmət prinsipləri əsasında daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilib, əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Rəşad Mahmudun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 1 mart tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə, 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi də vardır.

**Kuimova Vera Gennadiyevna**

"Tərəqqi" medalı ilə təltif edilmişdir.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Apellyasiya Şurasının ilk yığıncağı keçirilmişdir

***Martın 1-də Naxçıvan Şəhər İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Apellyasiya Şurasının ilk yığıncağı keçirilmişdir.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Apellyasiya Şurasının sədri Mirhəşim Seyidov yığıncağı giriş sözü ilə açaraq bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 fevral tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Apellyasiya Şurası yaradılmış, onun əsasnaməsi və tərkibi təsdiq edilmişdir. İlk dəfə yaradılan Apellyasiya Şurası ölkə başçısının yeni iqtisadi şəraitdə həyata keçirdiyi inkişaf strategiyasına uyğun olaraq, sahibkarlığın stimullaşdırılması, təşviqi, iş adamlarının hüquqlarının etibarlı müdafiəsi, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin müraciətlərinə baxılması, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən şikayət verilməsi mexanizminin təkmilləşdirilməsi məqsədilə yaradılıb.

Vurğulanmışdır ki, bu qurumun yaradılması iqtisadi islahatlar sahəsində uğurla həyata keçirilən dövlət siyasətinin tərkib hissəsidir. Fərmanın məzmunundan göründüyü kimi, Şuraya çox vacib funksiyaların yerinə yetirilməsi, iş adamlarının fəaliyyətinə mane olan amillərin aradan qaldırılması, şikayətlərin qanunvericiliyin tələblərinə uyğun həll edilməsi, əsaslı müraciətlərin təmin edilməsi, neqativ hallar müəyyən edildikdə tədbir görülməsi üçün aidiyyəti üzrə müraciət edilməsi həvalə olunub. Həmin funksiyaların icrası həyata keçirilən iqtisadi islahatların tərkib hissəsi olmaqla yanaşı, sahibkarlıq sahəsində ciddi qayda yaradılmasına, sivil biznes mühitinin formalaşmasına, sahibkarlığın və iqtisadiyyatın davamlı inkişafına öz töhfəsini verəcək.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Apellyasiya Şurasının yaradılması özəl sektorda çalışan iş adamlarının hüquqlarının müdafiəsinə, geniş mənada sahibkarlığın inkişafına əlavə təminatdır. Belə ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin icra strukturlarına etdikləri şikayətlərə baxılmadıqda və ya qəbul edilmiş qərarlar mübahisə doğurduqda onlar Apellyasiya Şurasına müraciət etmək imkanına malikdirlər. Vacib məqamlardan biri ondan ibarətdir ki, sahibkar Şuraya müraciət etdiyi gündən mübahisənin həlli prosesində iştirak imkanı qazanacaq. Bu mexanizm, öz növbəsində, şikayətlərə və qaldırılan məsələlərə aşkarlıq şəraitində baxılmasına, sahibkarlığın inkişafına mane olan bürokratik əngəllərin aradan qaldırılmasına, neqativ hallara qarşı daha səmərəli mübarizə aparılmasına, fəaliyyət prosesində yaranan problemlərin operativ və obyektiv həllinə, sahibkarların normal işləməsinə, onların dövlətə inamının artmasına imkan yaradacaqdır.

Diqqətə çatdırılmışdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Apellyasiya Şurasına sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qəbul etdiyi qərarlardan, hərəkət və ya hərəkətsizliyindən qanunvericiliyin tələblərinə əməl etməklə şikayət verə bilərlər. Şura öz fəaliyyətini qanunçuluq, şəffaflıq, kollegiallıq, qərəzsizlik prinsipləri əsasında, mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, habelə hüquqi və fiziki şəxslərlə əlaqəli şəkildə həyata keçirməlidir.

"Şuranın əsas vəzifəsi mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən verilmiş şikayətlərə baxılmasını təmin etməkdən ibarətdir. Daxil olan şikayətlərlə əlaqədar hərtərəfli, tam və obyektiv araşdırma aparılmalı və işin nəticəsi üzrə yazılı qərar qəbul edilməlidir", – deyən Mirhəşim Seyidov əlavə etmişdir ki, qəbul edilən qərarların icrasına nəzarət olunmalı, qanunvericiliyə uyğun olaraq dövlət və kommersiya sirrinin və qanunla açıqlanması və yayılması qadağan edilən digər məlumatların qorunması üçün zəruri tədbirlər görülməlidir. Şura öz vəzifələrini yerinə yetirərkən daxil olmuş şikayətlərlə bağlı zəruri məlumatların və sənədləri əldə etmək üçün sorğular vermək və belə məlumatları və sənədləri almaq, şikayət vermiş şəxsləri və ya onların səlahiyyətli nümayəndələrini, aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərini, habelə digər əlaqəli şəxsləri Şuranın iclaslarına dəvət etmək, onların iştirakı ilə araşdırma aparmaq, onlardan izahatlar almaq hüququna malikdir.

Şuraya daxil olan şikayətlərlə əlaqədar təşkilati tədbirləri həyata keçirmək üçün yaradılan işçi qrupu barədə danışan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Apellyasiya Şurasının sədri işçi qrupunun qarşısında duran vəzifələr, fəaliyyət istiqamətləri, üzvlərinin fəaliyyəti barədə ətraflı danışaraq qeyd etmişdir ki, Şuranın iclaslarında qəbul edilmiş və Şuranın sədri tərəfindən imzalanmış qərarların icrası bütün mərkəzi və yerli icra hakimiyyəti orqanları, həmçinin fiziki və hüquqi şəxslər üçün məcburidir. Odur ki, çıxarılan qərarların icrası üzvlər tərəfindən nəzarətdə saxlanmalı, eyni məsələ ilə bağlı təkrar şikayətlər olmamalıdır.

Diqqətə çatdırılmışdır ki, Şuranın vəzifələrindən biri də bu sahədə kobud nöqsanlara yol vermiş şəxslərin məsuliyyətə cəlb olunması üçün məsələ qaldırılmasıdır. Bunun üçün şikayətlər araşdırılarkən sahibkarların müraciətlərinin mərkəzi və yerli icra hakimiyyəti orqanlarına qeydiyyata alınıb-alınmadığı, vaxtında baxılıb-baxılmadığı, eyni zamanda müraciətə baxılmanın nəticəsi barədə şikayət edənə cavab verilib-verilmədiyinə diqqət edilməlidir. Xüsusilə hər hansı sahibkarın şikayətinin "məqsədə müvafiqlik" baxımından qaytarılması yolverilməzdir.

Mirhəşim Seyidov Şuranın fəaliyyətinin səmərəli olması üçün hər bir üzvün səylə çalışmasının vacibliyini bildirmiş, bu vəzifələrin həyata keçirilməsinin həm də vətəndaşlıq borcu olduğunu vurğulamışdır.

Sonra çıxış edən Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Texniki tənzimləmə və standartlaşdırma şöbəsinin müdiri Əli Şərifov, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin Kredit təşkilatlarına nəzarət şöbəsinin rəisi Şəmsəddin Sevdimalıyev təmsil etdikləri qurumların fəaliyyətindən bəhs etmişlər.

Yığıncağa Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Apellyasiya Şurasının sədri Mirhəşim Seyidov yekun vurmuşdur.

**"Şərq qapısı"**

## Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarı fəaliyyətə başlayacaq

***Bununla bağlı işçi qrupunun ilk görüşü olub***

Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının açılması ilə bağlı keçirilən ilk müzakirədə işçi qrupunun üzvləri iki ölkə arasında əlaqələrin daha da gücləndirilməsi istiqamətində görülən işlərdən danışıblar. Naxçıvan dəmiryol vağzalında keçirilən görüşdə belə tədbirlərin hər iki ölkənin vətəndaşları tərəfindən razılıqla qarşılandığı vurğulanıb. İlk görüşdə Azərbaycan tərəfdən "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Sərnişindaşımaları Departamentinin rəis müavini Mədət Şıxəmirov, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Mahir Əliyev, İran İslam Respublikası tərəfdən Azərbaycan Dəmiryolu Təşkilatının baş direktoru Mirhüseyn Musəvi, İran Dəmir Yolları Sərnişindaşıma Xidmətinin baş müdiri Mürtəza Cəfəri iştirak ediblər.

Qarşıdakı günlərdə Azərbaycan və İran dəmir yolu rəhbərlərinin iştirakı ilə keçiriləcək yüksək səviyyəli görüşə hazırlıq məqsədi daşıyan işçi qrupunun görüşündə bir sıra texniki məsələlər, sərnişin qatarının qrafiki və tariflər müzakirə olunub.

***2015-ci ildə "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyəti 8 min 339 ton 700 kiloqram məhsul istehsal edib. Həmin məhsulun 5 min 736,7 tonu daş, 2 min 603 tonu isə narın duz olub. Bəhs olunan dövrdə, ümumilikdə, 4 min 917,4 ton duzun satışı həyata keçirilib. Bunun 2 min 755 tonunu narın, 2 min 162 tonunu daşduz təşkil edib. Bu ilin ötən dövründə isə müəssisədə 673 kiloqram məhsul istehsal edilib. Bunun 500 kiloqramı daş, 173 kiloqramı narın duz olub.***



## "Naxçıvan Duz İstehsalı" MMC məhsul istehsalını artırır

Cəmiyyətin direktoru Anar Əsədullayevin bildirdiyinə görə, gündəlik istehsal gücü 40-45 ton daş, 20-25 ton isə üyüdülmüş duz olan "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətində 18 çeşiddə duz istehsal olunur və bu məhsullardan məişətdə, heyvandarlıqda, kimya sənayesində istifadə edilir. Yodlaşdırılmış duz həm nəfis tərtibatla bəzədilmiş 0,5, 1 kiloqramlıq karton və plastik, həm də 0,2, 0,5 kiloqramlıq polietilen taralarda və 25 kiloqramlıq kisələrdə "Duzdağ" əmtəə nişanı ilə satışa çıxarılır. 68 nəfərin işlə təmin olunduğu müəssisənin ixrac potensialı ildən-ilə genişləndirilir. Xammalın çıxarılmasından satışa göndərilməsinədək bütün texnoloji proseslərə, istehsal olunan duzun keyfiyyətinə və sanitar-gigiyenik qaydalara ciddi əməl olunur.

Xatırladaq ki, müəssisədə laboratoriya fəaliyyət göstərir. Bu da istehsal edilən duzun keyfiyyətinə tam nəzarət etməyə imkan verir. İstehsal prosesinin konveyer üsulu ilə təşkil edildiyi müəssisədə duz yeraltı partlayış üsulu ilə əsas kütlədən ayrılıb kiçik vaqonlara yüklənərək yerüstü sahəyə daşınır. Daşduz yerüstü sahədə çeşidləndikdən sonra emal sahələrinə gətirilir. Daşduz birinci sexdə 2 mərhələdə müxtəlif avadanlıqlarda əzilərək üyüdülüb hər ton duzun tərkibinə 85 qram yod əlavə edilməklə elevatorla ikinci sexə ötürülür. Burada isə ələkdən keçirildikdən sonra paketlənir. İstehsal olunan məhsulun taraları üzərində yod çatışmazlığının fəsadları ilə əlaqədar məlumat, duzun tərkibi, istehsal tarixi və yararlılıq müddəti göstərilir. "Naxçıvan Duz İstehsalı" MMC-də 2001-ci ildə 2300, 2014-cü ildə 6200 ton duz istehsal edilmişdi. Bu da onu göstərir ki, müəssisədə 2001-ci illə müqayisədə 6 min 39,7 ton, 2014-cü illə müqayisədə isə 2 min 139,7 ton çox duz istehsal olunub.

**Xəbərlər şöbəsi**

***Birləşmiş Millətlər Təşkilatında təmsilçilik hər bir dövlətin xarici siyasətində prioritet istiqamətlərdən birini təşkil edir. Azərbaycan dövləti 1992-ci il martın 2-də BMT-nin Baş Məclisinin 46-cı sessiyasında bu nüfuzlu beynəlxalq quruma tamhüquqlu üzv qəbul edilib. Həmin gün Nyu-Yorkda Azərbaycanın üçrəngli dövlət bayrağı qaldırılıb, may ayının 6-da isə Azərbaycanın BMT nəzdində Daimi Nümayəndəliyi açılıb.***

# Azərbaycan Birləşmiş Millətlər Təşkilatında böyük nüfuz sahibi olan ölkədir

1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair 822, 853, 874 və 884 saylı qətnamələr qəbul edib. Bu qətnamələrdə Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistanın silahlı qüvvələri tərəfindən işğalı faktı bir daha təsdiq olunub. 1996-cı ildə BMT Baş Assambleyası "BMT və ATƏT arasında əməkdaşlıq haqqında" qətnaməsində Azərbaycanın ərazi bütövlüyünü yenidən təsdiqləyib.

Azərbaycan BMT Baş Assambleyasının işində daim fəal iştirak edir. İlk dövrlərdən başlayaraq – 1994-1995-ci illərdə BMT Baş Assambleyasının 49-cu və 50-ci sessiyalarında ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın nümayəndə heyətinə başçılıq edərək ölkəmizin tanınmasına, onun problemlərinin həllinə diqqətin yönəldilməsinə nail olub. Ulu öndər bu mötəbər qurumun platformasından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yönəltməyə, BMT-nin potensial imkanlarından istifadə etməklə münaqişənin sülh yolu ilə həllinə çalışıb. 2000-ci ilin sentyabr ayında BMT-nin Minillik Zirvə Toplantısındakı nitqində isə ulu öndərimiz qloballaşma mövzusuna ətraflı toxunub və bu prosesin müsbət inkişafına, həmçinin Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə Azərbaycanın verdiyi töhfələri xüsusilə qeyd edib.

2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan-BMT əlaqələri daha da genişlənmiş, ölkəmiz bu mötəbər qurumda söz sahibi olan dövlətə çevrilmişdir. İlk dəfə Azərbaycan Respublikasının Baş naziri kimi 2003-cü ilin sentyabrında BMT Baş Assambleyasının 58-ci sessiyasında çıxış edən cənab İlham Əliyev beynəlxalq aləmdə mürəkkəb proseslərin cərəyan etdiyi dövrdə üzvlər arasında qarşılıqlı anlaşılmazlıqların meydana çıxmasına görə BMT Təhlükəsizlik Şurasının şəraitə uyğun çevik və adekvat münasibət göstərə bilməməsini qeyd edərək islahatların vacib məsələyə çevrildiyini bəyan etmişdi. BMT Baş Məclisinin 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin hələ də yerinə yetirilmədiyini vurğulamış və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını ümdə məsələ kimi irəli sürmüşdü. Bununla yanaşı, həmin il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı məsələ iclasın gündəliyinə salınmışdır. Daha sonra BMT Baş Məclisinin 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci plenar iclası və 2008-ci il martın 14-də keçirilən 62-ci sessiyanın 86-cı plenar iclasında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamələr qəbul edilmişdir. Artıq ölkəmizin bu beynəlxalq qurum çərçivəsində görülən işlərə verdiyi töhfələr sırasında qlobal səviyyədə terrorizmə qarşı aparılan mübarizədə fəal şəkildə iştirakı xüsusilə qeyd edilməlidir.

Azərbaycan dövləti Birləşmiş Millətlər Təşkilatının bir çox xüsusi qurum və orqanları – BMT-nin İnkişaf Proqramı, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, BMT-nin Uşaq Fondu, BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (YUNESKO), Səhiyyə İnkişaf Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Qadınlar Fondu, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Nüvə Sınaqlarının Hərtərəfli Qadağan olunması haqqında Müqavilə Təşkilatı və digərləri ilə fəal əməkdaşlıq edir. Bu əlaqələrimiz ildən-ilə daha da genişlənməkdədir. Bu baxımdan YUNESKO ilə əməkdaşlıq önəmli çəkiyə malikdir. Qloballaşmanın bütün dünyada qarşısıalınmaz prosesə çevrildiyi, kütləvi mədəniyyət stereotiplərinin hakim olduğu bir dövrdə Heydər Əliyev Fondu xalqımızın milli varlığının və özünəməxsusluğunun ifadəsi olan zəngin mədəni irsinin və dəyərlər sisteminin başəri miqyasda tanınmasına və təbliğinə nail olub.

Son illərdə Azərbaycan BMT çərçivəsində terrorizmə qarşı aparılan mübarizəyə də fəal dəstək verir. Respublikamız BMT Təhlükəsizlik Şurasının Terrorizmə qarşı Mübarizə Komitəsi ilə yaxından əməkdaşlıq edərək həmin quruma Azərbaycanda terrorizmə qarşı mübarizə sahəsində görülən tədbirlər haqqında müvafiq hesabatlar təqdim edir. Ölkəmiz beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi və qorunmasında, davamlı inkişaf və demokratikləşdirmə prosesində BMT-nin vacib rol oynadığını hər zaman önə çəkir. Bununla belə, təşkilatın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələrin imperativ xarakter daşımaması, təcavüzkarın cəzalandırılması yönümündə heç bir real addımın atılmaması təəssüf hissi doğurur.

Azərbaycan mütəmadi olaraq erməni təcavüzünün acı fəsadları ilə bağlı BMT-də məsələ qaldırır. Xatırladaq ki, BMT Nizamnaməsinin 2-ci maddəsində təşkilata üzv dövlətlərin bir-birinin suverenliyinə, sərhəd toxunulmazlığına qəsd etməsinin yolverilməzliyi göstərilib, 6-cı maddədə isə yazılıb ki, BMT Nizamnaməsinin prinsiplərini sistematik olaraq pozan ölkə Təhlükəsizlik Şurasının təqdimatı və Baş Assambleyanın qərarı ilə təşkilatdan xaric edilə bilər. Nəhayət, BMT Nizamnaməsinin 51-ci maddəsinə görə, Azərbaycan məruz qaldığı işğala son qoymaq üçün hərbi gücə əl atmaq hüququna malikdir. Bütün bunlar Azərbaycanın haqlı olduğunu, əgər münaqişənin təcavüzkar Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından sülh yolu ilə həlli mümkün olmazsa, digər yollarla həllini istisna etmir.

Ölkəmizin xarici və daxili siyasəti dünya demokratiyasının açdığı yolla demokratik prinsiplər əsasında inkişaf edir. Azərbaycanın 2006-cı il mayın 9-da BMT-nin İnsan Hüquqları Şurasına uzunmüddətli üzv seçilməsi ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun daha bir əyani təsdiqidir. Bu həm də onu sübut edir ki, müstəqil Azərbaycanın insan hüquq və azadlıqlarına hörmətlə yanaşması beynəlxalq səviyyədə təqdir olunur. Bu gün Azərbaycan dünyanın əksər dövlətləri ilə sıx əlaqələrə malikdir. Prezident İlham Əliyev Azərbaycanın dünyanın aparıcı dövlətləri ilə, xüsusən də qonşu ölkələrlə münasibətlərinin son illər daha da möhkəmlənməsini çox müsbət hal kimi dəyərləndirərək bunun ölkəmizin düşünülmüş xarici siyasət prinsiplərindən irəli gəldiyini bildirib: ***"Azərbaycan artıq dünyada gedən proseslərin fəal iştirakçısıdır. Bir çox hallarda bölgə və Avropa üçün önəmli tədbirlərin təşəbbüskarıdır. Bölgədə Azərbaycanın mövqeyindən artıq çox şey asılıdır. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir layihə – nə siyasi, nə iqtisadi, nə nəqliyyat, nə də başqa layihə həyata keçirilə bilməz".***

Azərbaycan Respublikası 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə Şərqi Avropa dövlətləri qrupundan namizədliyini irəli sürmüşdür. Azərbaycan seçkilərdə 155 səs toplayaraq 2011-ci il oktyabrın 24-də Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə kimi tarixə düşmüşdür. Azərbaycan 2012-ci ilin may və 2013-cü ilin sentyabr aylarında Təhlükəsizlik Şurasına sədrlik etmişdir. BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla yanaşı, həm də ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun göstəricisi kimi qiymətləndirilməlidir.

2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyəti müddətində Azərbaycan Respublikası bir sıra məsələlərin gündəliyə çıxarılmasına nail olmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, ölkəmizin bu quruma hər iki sədrliyi müddətində, ümumilikdə, qurumun 59 açıq və qapalı iclası keçirilmiş, 7 qətnamə, Şura sədrinin 3 bəyanatı və 13 mətbuat bəyanatı qəbul edilmişdir.

Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sürətli sosial-iqtisadi inkişafı da daim bu beynəlxalq qurumun diqqətində olub. 1997-ci ilin mayında Birləşmiş Millətlər Təşkilatının rezident əlaqələndiricisi Naxçıvana səfər edib, görüşlər keçirilib, muxtar respublikanın blokada şəraiti, iqtisadiyyatın inkişaf etdirilməsi məqsədilə həyata keçirilən işlər və digər məsələlər barədə müzakirələr aparılıb. BMT nümayəndələri 2013-cü ilin may ayında muxtar respublikaya növbəti səfər ediblər. Ötən dövrdə muxtar respublikada Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Kənd İnvestisiya Proqramı üzrə 150-dək layihəsi icra olunub.

*Bu gün Azərbaycan beynəlxalq aləmdə öz layiqli yerini tutub, BMT-də söz sahibi olan dövlətlərdən birinə çevrilib. Bu da ölkəmizdə ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş xarici siyasət kursunun uğurla davam etdirilməsinin nəticəsidir.*

**"Şərq qapısı"**

***Cəmiyyət inkişaf etdikcə, tələbatlar da artır. Bəlkə də buna görədir ki, müasir dövrdə rahatlıq hər kəs üçün sosial tələbata çevrilir. Bu tələbatın dayanıqlı təmini isə o zaman mümkün olur ki, vətəndaş dövlətə, dövlət isə öz vətəndaşına biganə qalmasın. Bu kontekstdən baxsaq, muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlərin ana xəttində insanların rahat yaşaması üçün yaradılan infrastrukturun dayanmasını görməmək mümkün deyil.***

# Yaradılan müasir şərait insanların rahatlığına xidmət edir

## *Şahbuz rayonunun Daylaqlı kəndindən reportaj*



Bir zamanlar "gözdənuzaq, könüldəniraq" məsəli kəndlərimiz üçün nə qədər xarakterik idisə, görülən işlər sayəsində indi belə yaşayış məntəqələrimiz həmin zərb-məsəldən bir o qədər uzaqdır. Çünki muxtar respublikada indiyədək aparılan tikinti-quruculuq tədbirlərinin böyük bir qismini kəndlərimizdəki infrastruktur tədbirləri təşkil edir. Bu tədbirlər nəticəsində kənd yaşayış məntəqələri müasirləşir, gediş-gəliş asanlaşır, insanların zəruri xidmətlərə olan ehtiyacları yüksək səviyyədə təmin olunur. Şahbuz rayonunun Daylaqlı kəndi də müasirləşən kəndlərimizin sırasına qoşulub. Kənddə yeni sosial obyektlərin istifadəyə verilməsi burada yaşayan insanların böyük sevincinə səbəb olub.

Daylaqlı kəndinə sosial obyektlərin istifadəyə verilməsindən bir gün sonra getdik. Naxçıvan-Şahbuz-Batabat magistral yolunun üstündə yerləşən kənd Şahbuz rayonunda heç zaman olmayan və yaxud bu yoldan indiyədək istifadə etməyən birisi üçün çox gözəl təəssürat mənbəyi ola bilər. Yol kənarında səliqəli görünüşü ilə diqqətçəkən üçmərtəbəli kənd tam orta məktəbi və ikimərtəbəli kənd mərkəzinin binaları, ətrafdakı səliqə-sahman, sıra ilə əkilmiş ağac və gül kolları, daş döşəməli səkilər, axşamlar isə müasir işıqlandırması ilə gözoxşayan obyektlər əraziyə xüsusi gözəllik verir. Yeni obyektlərin istifadəyə verilməsi Daylaqlı və Kiçikoba kəndlərində hər kəsin sevincinə səbəb olub. Görüşüb söhbətləşdiyimiz sakinlər bir daha görülən işlər üçün dövlətimizə minnətdarlıqlarını bildirdilər, bunu Heydər Əliyev siyasətinin uğurlu davamı kimi qiymətləndirdilər. Daylaqlı kənd tam orta məktəbinin direktoru Yenibar Hüseynov bildirdi ki, bu kənddə ilk məktəb binası 1968-ci ildə tikilib. Əslində, həmin bina sovet dövründə iaşə məqsədləri üçün nəzərdə tutularaq tikilsə də, sonralar bu binada siniflər təşkil olunub və heç zaman da orada təmir işləri aparılmayıb. Uçuq-sökük, təhsil tələblərinə cavab verməyən həmin binada dərs keçmək çox müşkül iş olub. Qışda isə vəziyyət daha da acınacaqlı idi. Belə ki, tədris üçün nəzərdə tutulmayan siniflərin qapıları birbaşa çölə açıldığından sinif otaqlarını lazımınca isitmək mümkün olmayıb. Əvvəllər səkkizillik tədris üçün nəzərdə tutulmuş məktəbdə şagirdlər təhsillərini rayon mərkəzindəki məktəbdə davam etdirməli olublar.

Məktəbin ibtidai sinif müəllimi Şəmsiyyə Novruzova isə qəlbindən keçənləri belə dilə gətirdi: "Belə gözəl məktəbin istifadəyə verilməsi qarşılığında minnətdarlıq azdır. Kəndimizdə belə bir təhsil ocağının istifadəyə verilməsini səbirsizliklə gözləyirdik. Köhnə məktəb binasında nə qədər çalışsaq da, tədrisin keyfiyyətlə aparılmasına nə qədər diqqət etsək də, şərait öz sözünü deyirdi. İndi isə yaxşı işləməmək, şagirdlərimizi əsl vətəndaş kimi hazırlamamaq üçün heç bir haqqımız yoxdur".

Rahid Məmmədov yeni istifadəyə verilmiş xidmət mərkəzində satıcı işləyir. Deyir ki, atası sovet dövründən buradakı mağazada işləyib. İndi isə onlara ərzaq və sənaye mallarının satışı üçün mərkəzdə yer ayrılıb. Həmsöhbətimiz yeni mağazada işləməyin onun üçün zövqlü bir iş olduğunu söyləyir və yaradılmış şəraitə görə minnətdarlığını bildirir.

Kənddə olduğumuz zaman söhbətləşdiyimiz 70 yaşlı Mədinə Məmmədova da görülən işlərdən ağızdolusu danışır. Deyir ki, əsilləri Şərur rayonundan olsa da, İkinci Dünya müharibəsindən sonra atası Heydər kişi Şahbuz rayonuna müəllim göndərilib və o vaxtdan da bu rayonda məskunlaşıblar. Özü isə uzun illər Şahbuz rayonunda bank sektorunda çalışıb. Bildirir ki, Daylaqlı kəndində bu cür gözəl binaların tikilməsi, yolların yenidən qurulması onu çox qürurlandırır: "Daylaqlı kəndində heç bir zaman belə böyük işlər görülməyib. Burada olan bütün tikililər sovet dövründən qalma idi, hamısı da köhnə, təmirsiz. Yollarımız palçıqlı, nahamar idi. İndi görürsünüz necə düzəldiblər? Vallah bunları görməmək, qiymətləndirməmək insafsızlıqdır. Allah üçrəngli bayrağımızı hər zaman ucalarda dalğalandırsın. Bu bayraq nə qədər çox dalğalanarsa, belə sevincli, rahat günlərimiz də çox olacaq".

Kənd sakini Kamal Məmmədov söhbətə qoşulur. Deyir ki, bütün bu yaradılanlar bizim üçündür. İndiyədək kənddə belə gözəl binalar tikilməyib, yollar təmir olunmayıb. Ancaq indi Daylaqlı kəndi gözəlliyə qovuşub, Batabat yaylağından bura su çəkilib, yeni obyektlərin ətrafında ağaclar əkilib. Çalışmalıyıq ki, bütün bu yaradılanları qoruyaq. Bu işdə zəhməti olan hər kəsə minnətdarlığımı bildirirəm.

Kənd mərkəzindəki feldşer-mama məntəqəsində çalışan tibb bacısı Nailə Həsənova isə 29 ilə yaxındır ki, səhiyyə sahəsində işlədiyini bildirir. Deyir ki, Daylaqlı kəndində insanlara tibbi xidmət göstərmək üçün heç bir zaman belə şərait olmayıb. Şəraitin olmaması kənd sakinlərinə normal tibbi xidmət göstərməyə imkan verməyib. İndi isə vəziyyət müqayisəolunmaz dərəcədə dəyişib. Müsahibim deyir ki, hərtərəfli şəraitə malik, yeni tibbi avadanlıqlarla təmin olunmuş məntəqədə insanların sağlamlığının keşiyində durmaq bizi daha yaxşı işləməyə sövq edir.

Daylaqlı kəndində görüşüb söhbətləşdiyimiz digər kənd sakinləri də sevinclərini bizimlə bölüşdülər. Görülən işləri dövlətimizin onlara göstərdiyi qayğı kimi dəyərləndirdilər, minnətdarlıqlarını bildirdilər. Qeyd etdilər ki, indi artıq heç kəs məktəbə göndərdiyi övladı üçün narahat olmayacaq, müxtəlif dövlət orqanlarına müraciət üçün fərqli ünvanlara getməyəcək, ən kiçik tibbi yardım üçün rayon mərkəzinə üz tutmayacaq. Biz də onlara kəndin bundan sonrakı yeni həyatında uğurlar arzulayıb oradan ayrılırıq.

Daylaqlı kəndində yeni sosial obyektlərin istifadəyə verilməsi ilə Şahbuz rayonundakı 22 kənd yaşayış məntəqəsindən 21-i müasirləşən kəndlərin sırasına daxil olub. Hazırda rayonun Türkeş kəndi istisna olmaqla, bütün yaşayış məntəqələri abadlaşdırılıb, yeni yollar salınıb, sosial obyektlər sakinlərin istifadəsinə verilib.

**S.HƏSƏNOV**



# Turizmin inkişafında hər birimiz maraqlı olmalıyıq

***Turizm sektoru müasir dövrdə dünya iqtisadiyyatının ən potensial sahələrindən biridir. Bu sahənin inkişafı elə bir səviyyəyə gəlib çatıb ki, hazırda elektronikadan sonra ən çox gəlir gətirən sektor kimi tanınır. Yunanıstan, İtaliya, İspaniya, Türkiyə kimi ölkələrin timsalında bunu aydın görmək mümkündür. Eyni zamanda nəzərə alaq ki, XXI əsrdə dünya ölkələrində turizmin inkişaf etdirilməsi daha çox əhəmiyyət kəsb etməyə başlayıb. Müxtəlif hesablamalara görə, bir turistin orta hesabla bir ölkədə xərclədiyi pul bir ton xam neftin qiymətindən artıqdır. Belə olduğu halda biz nədən tükənməz sərvət olan turizmin inkişafında ləngiməliyik? Bizim digər sərvətimiz isə belə demək mümkünsə, qonaqpərvərliyimizdir. Deyə bilərsiniz ki, axı bunsuz turizmi necə inkişaf etdirmək olar? Sualı belə cavablandırmaq mümkündür ki, dünyanın bir çox ölkələrində qonaqpərvərlik amili turizm sektorunun inkişaf etdirilməsi üçün qarşıya iqtisadi məqsəd kimi qoyulur, bizdə isə əksinə, xalqımızın hər bir nümayəndəsi qonaqpərvərliyi özünün milli dəyəri kimi görür.***

Burada bir çox məqamlar var ki, bunu düzgün anlamalıyıq: qonaqpərvərlik kənardan gəlmiş bir şəxsi, sadəcə, yeməyə, gəzməyə dəvət etmək deyil, həm də ona olduğu ölkədə öz dəyərini hiss etdirməkdir. Təəssüf ki, turizmin inkişaf etdiyi ölkələrin əksəriyyətində bunu bəzi hallarda sektordan kənarda görmək mümkün olmur. Ancaq həmin ölkələrdə turizmin marketinq strategiyası elə qurulur ki, bu amil düşündüyümüz maraqlardan kənarda qalır. Bizdə isə çatışmayan odur ki, qonaqpərvərliyimizi hələ də bu sektorda tam tətbiq edə bilmirik. Yəni fərdi olaraq etdiklərimizi ümumi səviyyədə təbliğ edə bilmirik. Bunun ən böyük səbəbi isə turizmə yanaşma tərzindən qaynaqlanır. Çünki biz hələ də turizmə daimi yox, mövsümi iş kimi baxırıq, halbuki muxtar respublikada ilin bütün fəsillərində turistlərin marağını təmin edəcək imkanlar var. Biz turizmin inkişafını dövlətdən gözləyirik, ancaq ən inkişaf etmiş ölkələrdə dövlət yalnız infrastrukturun təmin edilməsini həyata keçirir. Turizm sektorunu isə böyük şirkətlər deyil, kiçik və orta sahibkarlar inkişaf etdirir. Turizmin inkişafını hələ də bu sahə ilə məşğul olanların işi olduğunu düşünürük, lakin unuduruq ki, bir turistin ölkə ərazisinə ayaq basdığı andan ünsiyyətdə olduğu hər kəs turizmə öz töhfəsini verir. Biz turizmin inkişaf etdirilməsində təbliğatın çox mühüm rolu olduğunu yaxşı bilirik, amma bunu sərhədlərimizdən kənara çıxara bilmirik. Və nəhayət... Biz hələ də turizmdən danışmağı çox sevirik, amma bunu praktik olaraq icra edə bilmirik...

Əslində, turizmlə bağlı yazının bu cür pessimist ruha köklənməsini istəməzdim. Ancaq biz, həqiqətən, nəyinsə düzəlməsini istəyiriksə, muxtar respublikamızın inkişafını istəyiriksə, onun ölkəmizdən kənarda tanınmağına seviniriksə, bunları deməliyik. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası elə bir coğrafi məkanda yerləşir ki, ana təbiət bu qədim diyardan heç bir gözəlliyi əsirgəməyib. Ərazisinin kiçik olmasına baxmayaraq, Naxçıvanın təbiəti, tarixi və mədəni dəyərləri, sakit həyat tərzi burada çoxsaylı turizm növlərinin inkişaf etdirilməsi üçün əhəmiyyətli rol oynayır. Ötən dövr ərzində regionda turizm infrastrukturunun yaradılması istiqamətində dövlətimiz tərəfindən mühüm tədbirlər həyata keçirilib. Aparılan genişhəcmli tikinti-quruculuq işləri çərçivəsində muxtar respublikada avtomobil yolları yenilənib, tarixi və mədəni abidələr bərpa olunub, yeni otel və istirahət mərkəzləri yaradılıb, ən ucqar kənd yaşayış məntəqələrində belə, müasir tələblərə cavab verən ticarət, xidmət və səhiyyə obyektləri istifadəyə verilib. Hazırda da bu sahədə işlər davam etdirilir. Ancaq ayrı-ayrı dövlət qurumlarının, sahibkarların, eləcə də muxtar respublikaya gələn turistlərlə bu və ya digər dərəcədə əlaqəli olan müxtəlif peşə sahiblərinin fəaliyyətində hələ ki, heç bir təşəbbüsün ortaya qoyulmaması təəssüf doğurucu məqam olaraq qalmaqdadır. Sanki hər kəs turistin onun ayağına gələcəyini gözləyir ki, sonra xidmət göstərməyə başlasın. Bəs bu gün turizmin inkişafına töhfə verə biləcək sadə peşə sahibləri bu haqda necə düşünürlər?

Mövzu ilə bağlı söhbətləşmək istədiyim taksi sürücüləri ilə obyektiv nəticəyə varmaq üçün əvvəlcədən adlarının çəkilməməsinə söz verdim. Şərti adı Ramin olan taksi sürücüsü 6 ilə yaxındır ki, bu işlə məşğul olduğunu deyir. Həmsöhbətim bildirir ki, sürücü kimi indiyədək xeyli sayda turist gəzdirib. Əsas müştəriləri isə qonşu ölkələrdən olublar: "İran və Türkiyə respublikalarından indiyədək xeyli müştərilərim olub, hansı ki, Naxçıvana gəzməyə gəliblər. Müştərilərimdən elələri olub ki, əvvəllər də Naxçıvanda olduğuna görə gedəcəyi yerləri əvvəldən mənə deyib və yaxud nə isə almağa gedəndə məndən köməklik istəyib, mən də etmişəm. Aramızda münasibət yaranıb, hər dəfə bura yolları düşəndə məni axtarıb tapıblar ki, onları burada mən müşayiət edim". "Bəs heç tanımadığın bir turist gələndə necə, ona hansı yerləri gəzməyi təklif edirsən?" sualına cavab verir ki, ondan haralarda, necə bir yerdə olmaq istədiyini soruşuram və ona görə hərəkət edirəm.

"Məsələn, deyək ki, müştəri kimi taksiyə əyləşən birisi Naxçıvanın təbii gözəlliklərini görmək istəyir. Ona hansı yerləri təklif edərsən?" sualıma belə bir cavab alıram:

– Hər halda Batabat istiqamətinə getməyi təklif edərəm.

*– Niyə məhz Batabat? Məgər başqa yer yoxdur?*

– Çünki orada təbiət daha gözəldir, yaşıllığı çoxdur.

*– Başqa hansı yerləri təklif edərsən?*

– ...

Sualımıza digər taksi sürücüsü Kənan isə belə cavab verir: "Əslində müştəri ilə bir az söhbət etdikcə onun hara getmək istədiyini, nəyə daha çox maraqlı olduğunu bilmək olur. Məsələn, mənim müştərilərim old ki, Naxçıvan şəhərindəki tarixi yerlərin hamısını birlikdə gəzmişik. Üç gün ərzində Şahbuz, Culfa və Ordubad rayonlarında olmuşuq. Kəndlərimiz çox xoşlarına gəlib, yollarımızı bəyəniblər. Sonradan öyrənmişəm ki, müştərilərimin biri rəssamdır, yoldaşı isə müəllim. Onlar üçün maraqlı idi Naxçıvandakı muzeylərlə, tarixi abidələrlə, xüsusilə dağ kəndləri ilə tanış olsunlar. Amma hamısı eyni düşüncədə olmur ki. Müştəri olub ki, ancaq buradakı bazarları, ticarət mərkəzlərini gəzib".

Bəs deyək ki, gələn turist harada qalmaq və yaxud yemək üçün sizdən məsləhət almaq istəyir. Ona necə yardım edə bilirsiniz?

Həmsöhbətim vurğulayır ki, gecələmək üçün şəhərdəki otelləri təklif edirik. Bəzən gələn adam 10-15 gün qalmaq istəyir. Bu zaman çoxları fərdi ev kirayələyir. Çünki bu, turist üçün daha sərfəli olur. Bunu ən çox Duzdağ sanatoriyasına gələnlər istəyir. O ki qaldı yemək məsələsinə. Soruşuruq ki, necə bir yerdə yemək istəyirsiniz və ya özümüz bizim üçün tanış olan yeməkxanalara aparırıq.

Söhbət əsnasında taksi sürücüləri muxtar respublikada gəzmək üçün turistik ərazilər kimi yalnız Batabat, Duzdağ və Əshabi-Kəhf ziyarətgahının adını çəkə bildilər. Tarixi abidələr sırasında isə Möminə xatın türbəsinin, Nuh türbəsinin və Naxçıvanqalanın adını söylədilər.

Burada bir haşiyə çıxaraq bildirmək istərdik ki, taksi fəaliyyəti ilə məşğul olan sürücülər istənilən ölkədə turistlərlə sıx əlaqədə olan peşə sahibidirlər. Turistin bir şəhər və yaxud bölgə ilə tanışlığı çox vaxt taksidə başlayır. Taksi sürücülərinin müştəri ilə davranışları, onlara verdikləri məlumatlar turistlər üçün ilk təəssürat qaynaqlarıdır. Buna görə də bu peşə sahiblərinin olduqları yerin tarixi, məişəti, təbiəti, mədəni ünvanları ilə bağlı ümumi biliklərə malik olması qaçılmazdır. Təbii ki, burada akademik biliyə malik olmaqdan söhbət getmir. Ancaq istənilən turistin marağını təmin etmək müəyyən qədər də bu peşə ilə məşğul olanların üzərinə düşür. Son dövrlərdə muxtar respublikada nəqliyyatın inkişafı ilə bağlı həyata keçirilən tədbirlər haqqında hər birimiz məlumatlıyıq. Xüsusilə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyində xidmət sektorunda çalışan sürücülərlə müxtəlif mövzularda (müvafiq geyim formalarından düzgün istifadə, davranış qaydalarına riayət olunması və sair) seminarların təşkili və bunun əməli nəticələri hər kəs tərəfindən razılıqla qarşılanır. Məgər adıçəkilən nazirlik Mədəniyyət və Turizm Nazirliyi ilə birgə taksi xidməti ilə məşğul olanlarla turizmin inkişafına xidmət məqsədilə seminarlar təşkil etsə, bu, ümumi işin xeyrinə olmazmı? Və yaxud hər iki dövlət qurumu Naxçıvanın turizm obyektləri və onların marşrutu ilə bağlı bir neçə əsas dildə məlumatlandırıcı bukletlər hazırlasa və bunun muxtar respublikada taksi fəaliyyəti göstərən nəqliyyat vasitələrində olmasını təmin etsə, turizmin inkişafına töhfə olmazmı?

Qayıdaq əvvəlki söhbətimizə. Şəhərimizdə fəaliyyət göstərən bir neçə yeməkxanada, əsasən, xidmətçilərlə görüşüb ayaqüstü söhbət etmək imkanımız oldu. Ümumi mənzərə isə bu idi ki, yeməkxanalarımızda səliqə-səhman hökm sürsə də, hamımıza məlum bir neçə milli kabab və qazan yeməklərindən başqa təqdim edəcəyimiz fərqli çeşidlərimiz yoxdur. Fərqli çeşiddə yeməkləri isə (onların sayı çox deyil) qonaq sayına görə yalnız xeyli əvvəldən sifariş verməklə əldə etmək olar.

Digər maraqlı bir məqam isə ondan ibarətdir ki, hələ də paytaxt Naxçıvan şəhərində sırf səhər yeməkləri təqdim edən bir ünvanımız yoxdur. Halbuki belə bir kafenin fəaliyyət göstərməsi turizmin inkişafı baxımından çox lazımlı obyektlərdən ola bilər. Kafedə isti təndir çörəyi, yerli bal, qaymaq, inək yağı, qatıq, süd, xamadan tutmuş səhər yeyilə biləcək bir çox yemək növlərinədək xeyli yemək çeşidləri təqdim etmək olar. Fikirləşə bilərik ki, onsuz da bəzi yeməkxanalarda və ya otellərimizdə səhər yeməyi verilir. Bunu biz də bilirik, ancaq söhbət ixtisaslaşmadan gedir – bu tip yerlərdə milli yemək növlərini daha yaxşı tanıtmaq və təbliğ etmək mümkündür. Hər halda yerli sahibkarların bu haqda düşünməsi işin xeyrinə ola bilər.

*Sonda gəldiyimiz nəticə budur ki, turizmdə müxtəlif sahələrin inkişaf etdirilməsi üçün hələ çox iş görməliyik. Bu sahənin inkişafına yerli sahibkarların marağını daha da artırmalıyıq. Muxtar respublikamızın turizm diyarına çevrilməsi üçün reklam vasitələrindən düzgün istifadə etməli, turizm obyektlərimizin koordinatları ilə hər addımda – taksidə, daxili avtobus nəqliyyatlarında, otellərimizdə, hava limanı və gömrük-keçid məntəqələrində, küçə və prospektlərimizdə rastlaşmalıyıq ki, bura yolu düşən turistlərə də hər birimiz bələdçilik edə bilək. Unutmayaq ki, turizm kifayət qədər geniş və perspektivli bir sahədir. Turizm yeni iş yerlərinin açılmasına, tariximizi, mədəniyyətimizi, ənənələrimizi tanıtmağımıza, yerli məhsullarımızın daxili və xarici bazarda satılmasına, beynəlxalq aləmdə düzgün təbliğ olunmağımıza, dünyada ölkəmizin haqq sözünü deməyə imkan verən sahələrdən biridir. Buna görə də turizmin inkişafı ümumxalq işidir.*

**✍ Səbuhi HƏSƏNOV**

# Türkiyəli professor *"Naxçıvan"* Universitetində mühazirə oxuyub



***"Naxçıvan" Universiteti dünyanın 22 ali təhsil ocağı ilə sıx əməkdaşlıq edir. Bunlar arasında Avropanın, eyni zamanda Türkiyə Respublikasının və İran İslam Respublikasının bir sıra universitetləri də var.***

"Naxçıvan" Universitetindən aldığımız məlumata görə, universitetin dünyanın tanınmış ali təhsil ocaqları ilə əməkdaşlığı inkişaf etdirməsi ortaq elmi proqramların və konfransların keçirilməsinə, tələbə mobilliyinin artırılmasına, müəllim-tələbə mübadilələrinin həyata keçirilməsinə geniş şərait yaradır.

Hazırda "Mövlana Mübadilə Proqramı" çərçivəsində Türkiyənin bir sıra ali təhsil ocaqları ilə əlaqələrini genişləndirən universitetdə qardaş ölkədən dəvət edilmiş müəllimlər mühazirələr oxuyurlar. Bu çərçivədə Ərzurum şəhərindəki Atatürk Universitetinin İqtisadi və idari bilimlər fakültəsinin professoru Kerem Karabulut "Naxçıvan" Universitetinin İqtisadiyyat və İdarəetmə fakültələrində "Dünyanın sosial-iqtisadi problemlərinin təhlili" mövzusunda mühazirələr oxuyub. O, dövrümüzün aktual problemlərindən və onların həlli yollarından bəhs edib. Türkiyə-Azərbaycan iqtisadi əlaqələrindən, bu əlaqələrin iki qardaş ölkə üçün əhəmiyyətindən söhbət açan professor Türkiyə ilə Ermənistan arasındakı mövcud problemlərindən də danışıb.

Professor Kerem Karabulut növbəti dəfə bu ilin aprel ayında "Naxçıvan" Universitetinin qonağı olacaq.

**Xəbərlər şöbəsi**

# Ümumdünya Mülki Müdafiə Gününə həsr olunmuş elmi konfrans

***Dünən Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi ilə birgə 1 mart – Ümumdünya Mülki Müdafiə Gününə həsr olunmuş elmi konfrans keçirilib.***



Universitetin tərbiyə işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov çıxış edərək 1 mart – Ümumdünya Mülki Müdafiə Günü haqqında, həmçinin ali təhsil ocağında mülki müdafiə işinin təşkili barədə danışıb.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi, polkovnik Emin Qasımov bildirib ki, Ümumdünya Mülki Müdafiə Təşkilatı 1972-ci il martın 1-dən fəaliyyət göstərir. Azərbaycan Respublikası bu təşkilatda 1993-cü ildən təmsil olunur.

Vurğulanıb ki, əhalinin mühafizəsi mülki müdafiənin başlıca vəzifəsidir. Mühafizənin əsas üsul və vasitələri isə insanların mühafizə qurğularında daldalandırılması, təhlükəli yerlərdən köçürülüb az təhlükəli, yaxud təhlükəsiz yaşayış məntəqələrində yerləşdirilməsi, fərdi mühafizə vasitələrindən hamının istifadə etməsidir. Emin Qasımov fövqəladə hallar zamanı ali təhsil müəssisələrində müəllim-tələbə heyətinin mühafizəsi üzrə tədbirlərin təşkili və keçirilməsi qaydaları haqqında da məlumat verib.

Naxçıvan Dövlət Universitetinin Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrasının müdiri Oktay Rzayev "Naxçıvan Dövlət Universitetində mülki müdafiənin tədrisi vəziyyəti" mövzusunda məruzə edərək tələbələrin bu sahədə biliklərinin artırılması, mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsi, əməli vərdişlərinin formalaşdırılmasına yönələn və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi ilə birgə təşkil olunan təlimlərin, məşğələlərin rolundan danışıb.

Tədbirdə baş leytenant Rəcəb Səfərov qəzalar zamanı əleyhqazlardan istifadə qaydaları barədə məlumat verib.

**Mina QASIMOVA**



***Kitabxanalar gənc nəslin estetik zövqünün formalaşmasında, nitq qabiliyyətinin zənginləşdirilməsində, onların dünyagörüşünün artmasında mühüm rol oynayan mədəniyyət müəssisələridir. Çünki bilik mənbəyi olan kitab qiymətli sərvət olaraq mütaliəsevərlərin həyata baxışlarının düzgün istiqamətləndirilməsinə müsbət təsir göstərir, onların söz ehtiyatını artırır.***

# Hər kitab bizə mütləq nəsə öyrədir

## *Gəlin öyrənməkdən özümüzü məhrum etməyək*



Oxuduğumuz hər kitab bir həyatdır, əslində. İlk səhifələrində fikrimizdə qaranlıq qalan məsələlər vərəqlər bir-birini əvəzlədikcə öz-özlüyündə aydınlığa çıxır. Hər kitabdan biz mütləq nəsə öyrənirik. Oxuduqlarımızı digərlərinin də oxuması üçün seçilən ədəbiyyat nümunələrindən ətrafımızdakılara da məsləhət görür, onları da kitab oxumağa həvəsləndirməyə çalışırıq. Muxtar respublikamızda fəaliyyət göstərən kitabxanalarda istənilən yaş təbəqəsindən olan insanların müxtəlif sahədə maariflənməsi üçün kifayət qədər kitablar vardır. Belə mədəniyyət müəssisələri oxuculara yüksək səviyyədə xidmət etməyə hazırdırlar. Təki insanlar maariflənməyi, nəsə öyrənməyi qarşılarına məqsəd qoyub, müəyyən qədər vaxt ayırıb buraya üz tutsunlar. Son zamanlar gənclərin kitabxanalara axını bir qədər sürətlənsə də, onlar, adətən, ədəbiyyat nümunələri üçün deyil, dərs materialları əldə etmək üçün buraya müraciət edirlər.

Kifayət qədər vaxtımız var ikən kitab oxumamağımıza səbəb nədir? Kitablarmı zövqümüzə görə deyil, yoxsa yaşadığımız dövrdə zövqümüzcə yazan yazıçılar yoxdur?

Suallarımıza cavabı Naxçıvan şəhərində fəaliyyət göstərən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında tapmaq qərarına gəldik. Bu kitabxananın 4 ildir ki, üzvü olduğumdan burada oxuculara göstərilən xidmət barədə məlumatlı idim. Amma hər halda buradakı oxucu və kitabxana əməkdaşlarının fikirlərinin oxucularımız üçün maraqlı olacağını düşünürdüm. İçəri keçib birbaşa oxu zalına qalxdım. Burada özümə lazım olan ədəbiyyatı alıb yerimə əyləşdim. Zalda mənimlə bərabər bir neçə gənc də kitab oxuyurdu. Yarım saat sonra işimi qurtarıb suallarımı cavablandırmaq üçün kitabxana işçilərinə yaxınlaşdım. Oxucular diqqətlə kitab oxumaqla məşğul olduqlarından kitabxana işçiləri ilə söhbət edə bilərdim.

Oxu zalının müdiri Mehriban Mahmudova bildirdi ki, buraya müxtəlif yaş təbəqəsindən müxtəlif peşə sahibləri müraciət edirlər. Onların müraciətləri, əsasən, ixtisasları ilə bağlı materiallarla əlaqəli olur. Oxuculara hər cür şərait yaradılıb, kitablardan istifadə üçün vaxt məhdudiyyəti qoyulmayıb. Mehriban Mahmudova onu da qeyd etdi ki, burada bir çox ədəbiyyat nümunəsi olmasına baxmayaraq, insanlar daha çox elmi əsərlər oxumaq üçün müraciət edirlər. Doğrudan da, orada olduğum bir saat ərzində özüm də bunu gördüm. Oxucuların ancaq dərs üçün istifadə edəcəyi ədəbiyyat, bəzilərinin ixtisasına uyğun ensiklopediyalar aldıqlarının şahidi oldum. Etiraf edim ki, mən özümü də belə insanların sırasında tapıram...

Oxu zalında əyləşən oxuculardan biri söhbət əsnasında bildirdi ki, kitabxanada onlara yaxından köməklik göstərilir. Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin tələbəsi Taliyə Mahmudova bədii ədəbiyyata marağı olsa da, buraya daha çox mühazirələrdə istifadə olunan ədəbiyyatları əldə etmək üçün müraciət etdiyini dedi. "Bəs niyə bədii ədəbiyyatla maraqlanmırsınız?" sualıma "Çox vaxtım olmur, amma bacardıqca bədii ədəbiyyatla da maraqlanıram" cavabını aldım.

Gənclərin Abonement şöbəsinə axını da diqqətimdən yayınmadı. Bu şöbədə çalışan Azadə Qədimova ilə söhbətdə onun oxucu sıxlığından razı qaldığını hiss etdim. Gün ərzində müraciət edənlərin sayı dəyişkən olsa da, o, buraya müxtəlif ədəbiyyatları əldə etmək üçün kifayət qədər oxucunun müraciət etdiyini bildirdi. Qeyd etdi ki, gənclər H.Cavid, M.Araz, M.F.Axundov, B.Vahabzadə və digər görkəmli şair və yazıçılarımızın əsərlərini sevə-sevə, həvəslə oxuyurlar. Onlar V.Hüqo, F.Dostoyevski, Mark Tven, İ.Stoun, Cek Londonun əsərlərinə də maraq göstərirlər.

Oxucular buradakı xidmətdən razı olduqlarını, kitab seçimində qərarsız qaldıqları zaman kitabxana işçilərinin öz köməklərini onlardan əsirgəmədiklərini dilə gətirdilər.

Yaxınlaşdığım oxuculardan biri – Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin tələbəsi Ülviyyə Əhmədova asudə vaxtında tez-tez buraya üz tutduğunu bildirdi. Etdiyimiz söhbətdən məlum oldu ki, onun ilk oxuduğu kitab V.Hüqonun "Səfillər" əsəridir. Zamanın və şəraitin sınaqları ilə üzləşən, çətinlik çəkən insanların talelərini özündə əks etdirən əsərlərə xüsusi marağı olduğunu bildirən Ülviyyə bu baxımdan V.Hüqo və İ.Stoun yaradıcılığının vurğunu olduğunu dilə gətirdi. Digər oxucu Zəhra Qasımova isə nəzmlə yazılan əsərlərə daha çox üstünlük verdiyini və bu baxımdan H.Cavidin çox sevdiyi "İblis" əsərinin ədəbiyyatımızın təkrarsız bir nümunəsi olduğunu bildirdi.

İnci Məmmədzadə isə fikirlərini belə ifadə etdi: "Kitab yaxşı dostdur" fikrini tez-tez səsləndiririk. Kitab oxumağı sevən insanlar oxuduqları hər kitabın son vərəqlərində bu bir cümləlik fikrin doğruluğuna bir daha əmin olurlar. Bəzən vaxt məhdudiyyəti səbəbi ilə bir kitabı bitirməyimiz aylar çəkir, lakin buna baxmayaraq, ilk səhifələrindən məzmununu tamamilə mənimsəmədiyimiz kitabı tam şəkildə qavramaq üçün onu tez zamanda yekunlaşdırmağa tələsərik. Bəzi əsərlər bizə o qədər təsir edir ki, onu oxuduqca həmin vərəqlərin içində sanki özümüzü tapırıq. Hətta bəzən orda yer alan bir obraz bizim həyatımızı da qısaca əks etdirə bilər. Belə hallarda həmin personajın aqibəti ilə maraqlanır, əsəri sona kimi həyəcanla oxuyuruq".

Kitabxanada olarkən öyrəndik ki, 24916 üzvü olan bu mədəniyyət müəssisəsi 2015-ci ildə 775 yeni üzv qazanıb. Bu ilin yanvar ayı üçün isə bu göstərici 42 nəfərdir. Deməli, ay ərzində 42 nəfər maariflənməyi qarşısına məqsəd qoyub, bu məqsədə doğru ilk addımlarını atıb. Bəs digərləri?

Burada Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi Əmanət Musayeva ilə görüşdüm. Müsahibim vaxtın azlığından şikayət edən bəzilərinə öz fikirlərini bildirdi: "İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı nəticəsində bir çox dəyişikliklərlə qarşılaşa bilərik, lakin Günəşin çıxması ilə batması arasındakı məsafə elə bu gün də dəyişməz qalaraq eyni zaman çərçivəsini əhatə edir. 24 saat bütün gün üçün xidmətimizdədir və biz bu zamandan bütün məşğuliyyətlərimizə pay veririk, lakin növbə kitab oxumağa gələndə vaxtımızın olmamağından gileylənirik. Bəs niyə biz bir çox ehtiyaclarımızı təmin etməyə vaxt tapırıq, amma özümüzü kamilləşdirməyə vaxt tapmırıq? Kitabları sevmək, onlara vaxt ayırmaq heç də çətin deyil. Bunun üçün onların nə dərəcədə əhəmiyyətli olduqlarının fərqinə varmalıyıq. Kitab dostdur, həyatdır, dərsdir və ən əsası kitab insanların xilaskarıdır. Kitabların kölgəsində böyüdə bilmədiyimiz bir nəsli silahların kölgəsindən qurtara bilmərik".

Kitab oxuyan şəxs minlərlə həyatı, oxumayan şəxs isə bir həyatı kəşf edər. Hər kitab bizə mütləq nələri isə öyrədər. Gəlin öyrənməkdən özümüzü məhrum etməyək!

✍ **Fatma BABAYEVA**

# Maarifləndirici tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilən "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində görmə qabiliyyəti məhdud uşaqların valideynlərinin iştirakı ilə maarifləndirici tədbir keçirilib.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin direktoru Ramin Səfərov tədbirin əhəmiyyətindən danışaraq bildirib ki, məqsəd məktəbyaşlı görmə məhdudiyyəti olan uşaqların davamlı təhsilə cəlb edilməsinə, onların cəmiyyətə inteqrasiyasına nail olmaqdır. Tədbirdə mərkəzdə sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası üçün yaradılan şəraitdən, görmə qabiliyyəti məhdud şəxslərə audiokitabxana xidmətindən, aylıq brayl jurnalının nəşrindən, bu kateqoriyadan olan uşaqların istedadlarını aşkara çıxarılması məqsədilə təşkil edilən yaradıcılıq müsabiqələrindən bəhs edilib.

Görmə qabiliyyəti məhdud uşaqlar üçün xüsusi ibtidai məktəbin müəllimi Cəmşid Abdullayev tədrisin təşkili, uşaqların təhsili ilə bağlı hazırlanan proqramlar barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonra Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin kompüter mütəxəssisi Elməddin Kərimov çıxış edərək uşaqların elmi biliklərə yiyələnməsi və dünyagörüşünün zənginləşməsində müasir informasiya texnologiyalarının rolundan və onlardan istifadə sahəsində biliklərin artırılması məqsədilə təşkil edilən məşğələlərdən danışıb.

Sonda valideynləri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Aztəminatlı ailəyə baş çəkilib

Son illər dövlətimiz tərəfindən aztəminatlı ailələrin sosial rifahının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılır. Minimum əməkhaqqının, pensiya və müavinətlərin artırılması, eyni zamanda ünvanlı dövlət sosial yardım mexanizminin tətbiqi nəticəsində ailələrin həyat səviyyəsinin yüksəldilməsinə nail olunub. Bununla yanaşı, muxtar respublika iqtisadiyyatının davamlı şəkildə sürətli inkişafı ailələrin sosial problemlərinin həll olunması üçün geniş imkanlar açıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən redaksiyamıza verilən məlumata görə, Kəngərli rayonunun Yurdçu kəndində yaşayan çoxuşaqlı aztəminatlı Nuriyevlər ailəsinə baş çəkilib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin əməkdaşları ailənin yaşayış şəraiti ilə maraqlanıb, ailə üzvlərinə səyyar tibbi xidmət göstərilib, onlara ərzaq payı verilib.

Ailə üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

**Xəbərlər şöbəsi**

# Qız basketbolçular arasında birinciliyə yekun vurulub

5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə Şərur Rayon Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi qızlar arasında basketbol üzrə birinciliyə yekun vurulub. Rayonun Şəhriyar kənd tam orta məktəbinin idman zalında keçirilən birincilikdə 7 məktəbdən 84 şagird iştirak edib. Birinciliyin final görüşündə Siyaqut və Yengicə kənd tam orta məktəblərinin komandaları üz-üzə gəlib. Daha üstün olan birincilər meydanı qalib kimi tərk ediblər. Üçüncü yerə isə Şəhriyar kənd tam orta məktəbinin komandası layiq görülüb.

Qaliblər təşkilatçılar tərəfindən diplomlarla mükafatlandırılıblar.

# Yoldaşlıq görüşündə "Babək" komandası qalib gəlib

Dünən Babək rayonunda 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə basketbol üzrə yoldaşlıq görüşü keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi yoldaşlıq görüşündə "Babək" və "Şahbuz" komandaları üz-üzə gəlib. Görüşdən öncə çıxış edən federasiyanın sədr müavini Ənvər Məmmədov Bədən Tərbiyəsi və İdman Günü münasibətilə iştirakçıları, eləcə də idman ictimaiyyətini təbrik edib və bu gün haqqında geniş məlumat verib.

Daha baxımlı oyun sərgiləyən "Babək" komandası rəqibini 46:32 hesabı ilə məğlub edib.

Fərqlənən basketbolçulara federasiya tərəfindən diplomlar təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

# *İşaxtaran vətəndaşların nəzərinə!*

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçı peşəsi üzrə kurs təşkil edir. Tədrisin müddəti 2 aydır.

Peşə hazırlığı kursunda təhsil almaq istəyənlər 2016-cı il mart ayının 5-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər:

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi yoxlama haqqında arayış.*

Əqli və fiziki potensialları xalçaçı peşəsi üzrə təhsil almağa uyğun olan sağlamlıq imkanları məhdud şəxslər də müraciət edə bilərlər.

***Əlaqə telefonu: 545-32-33***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 182